UOT 902.911

# CANAXIRDA ANTİK NEKROPOL

**T.M.DOSTİYEV*, Q.O.QOŞQARLI****
*Bakı Dövlət Universiteti**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
*dostiyev_tarikh@yahoo.com*

*Məqalədə Xaçmaz rayonunda, Ağ çayın sahilində yerləşən Canaxır şəhər nekropolunun arxeoloji tədqiqinin nəticələri nəzərdən keçirilir. Burada 28 kv. m.sahədə 18 torpaq qəbri aşkarlanaraq tədqiq edilib. Bir qəbirdə cüt, digər qəbirlərdə tək dəfnlər qeydə alınıb. Qəbirdə skeletləri bükülü vəziyyətdə, sol və ya sağ böyrü üstə yerləşmişdir. Qəbir quyularının və dəfn olunanların istiqamətində sabitlik yoxdur. Qəbir avadanlığı saxsı qablardan, əmək alətlərindən və bəzək əşyalarından ibarətdir. Artefaktların tipologiyası bu nekropolu son antik dövrə aid etməyə imkan verir.*

**Açar sözlər:** Canaxır, nekropol, qəbir, antik, artefakt

Canaxır qədim şəhərgahı Müşkür düzündə, Ağ çayın sağ sahilində, Xaçmaz rayonunun eyni adlı kəndinin şimal kənarında yerləşir. Abidə 1977-ci ildə Azərbaycan Elmlər Akademiyasının "Azərbaycanın arxeoloji abidələrinin külliyyatı" ekspedisiyası tərəfindən qeydə alınmış, 1992-1993-cü illərdə isə Bakı Dövlət Universitetinin Müşkür ekspedisiyası şəhərgahda arxeoloji qazıntılar aparmışdır (1; 2; 4; 6). Arxeoloji tədqiqatların ilkin yekunları burada eramızın ilk əsrlərində şəhərtipli yaşayış məskəninin salındığını, erkən orta əsrlərdə onun genişlənərək bölgənin mühüm şəhər mərkəzinə çevrildiyini, ərəb istilası, ərəb-xəzər qarşıdurması nəticəsində tənəzzül keçirərək əvvəlki təmtəraqını itirdiyini, XV əsrədək yaşayışın davam etdiyini təsdiqləmişdir. Son antik dövrə aid mədəni təbəqə yatımı abidənin Xunatəpə Ortatəpə, habelə adlarını dəqiqləşdirə bilmədiyimiz III, V və X təpə adlandırılan sahələrində qeydə alınmışdır. Aşağıtəpə adlandırılan sahədə yerləşən həmin dövrün nekropolu isə 1993 – cü ildə tədqiq edilmişdir (1; 4). Arxeoloji qazıntı işləri abidənin daha çox dağıntıya məruz qaldığı sahədə, təpənin şimal-qərb yamacında aparılmış, burada, 30 kv.m. sahədə 18 torpaq qəbir qazılıb öyrənilmişdir. Qəbirlər -25 sm-dən-160 sm dərinliyə qədər müxtəlif səviyyələrdə yerləşirdi. Qəbir quyuları, əsasən, dördkünclü olub, bəzən biri digərinin divarını kəsmişdi. Qəbir quyularının və dəfn olunanların istiqamətlənməsində sabitlik müşahidə olunmur. Əksər hallarda qəbirin döşəməsinə çınqıl tökülərək bərkidilmişdir. 7, 16 və 18

saylı qəbirlərin döşəməsinə kömür qırıntıları səpələnmişdi. Qəbirdə ölü sağ və ya sol böyrü üstə, bükülü vəziyyətdə yerləşdirilmişdi.

**1 saylı qəbir** 25 sm dərinlikdən üzə çıxarıldı. Ölü sol böyrü üstə, bükülü vəziyyətdə, kəlləsi şimali-qərbə dəfn olunmuşdur. Skelet pis mühafizə olunduğundan çanaq və ətraf sümükləri qalmamışdı. Skeletin kəlləsindən 12 sm qərbdə dopu qoyulmuşdu. Onun yastı oturacağı, dəyirmi gövdəsi, dar boğazı, novçalı ağzı, çubuqvari qulpu vardır. Üzərinə anqob çəkilmişdir (tablo I, şək.1).

I Tablo




**2 saylı qəbir** 1 saylı qəbirdən 1,8 m şərqdə 30 sm dərinlikdən üzə çıxarıldı. Skelet 1,6 m uzunluqda, 70 sm enində qəbir quyusunda kəlləsi şimali-qərbə istiqamətlənməklə sol böyrü üstə, bükülü vəziyyətlə yerləşmişdi. Kəllədən 10-12 sm aralıda kasa tipli iki saxsı qab fraqmentləri vardı. Onlardan birinin formasını nisbətən aydın müəyyənləşdirmək olur (tablo I, şək. 10). Skeletin boyun nahiyəsindən bir mis, bir şüşə və bir pasta muncuq tapıldı (tablo III, şək.1-3).

**3 saylı qəbir** 2 saylı qəbirdən cənubda 1,1 m dərinlikdə üzə çıxarıldı. Skelet sol böyrü üstə, kəlləsi şimal-şərqə, üzü şərqə yerləşmişdi. Skeletin ayaq tərəfində parçalanmış vəziyyətdə üçnovçalı ağzı olan bardaq vardı (tablo II, şək.6).

II Tablo



**4 saylı qəbir** 3 saylı qəbirdən cənubi–şərqdə 1,1 m dərinlikdə üzə çıxarıldı. Skeletin kəlləsi cənub-qərbə, üzü şərqə sağ böyrü üstə bükülü vəziyyətdə yerləşmişdi. Əllər sinəyə qoyulmuş, qıçlar dizdən bükülmüşdü. Ayaqların büküldüyü səviyyədə genboğazlı dopu qoyulmuşdu (tablo I, şək.2).

**5 saylı qəbir** 2 saylı qəbirdən şimal – şərqdə 30 sm dərinlikdə üzə çıxarıldı. Qəbir qismən dağıdılmışdı. Skeletin kəlləsi qərbə istiqamətlənmişdi. Kəllədən qərbdə iki saxsı qab qırıqları vardı. Onlardan biri ağzı novçalı, hündür, silindrik boğazlı bardağa məxsusdur (tablo I, şək. 3).

**6 saylı qəbir** 4 saylı qəbirdən şərqdə 80 sm dərinlikdə üzə çıxarılıb təmizlənmişdir. Qəbir oval plana malik olub, uzunluğu 75 sm, eni 65 sm idi. Qəbirdə uşaq dəfn edilmişdi. Skelet kəlləsi qərbə, sifəti cənuba, sağ böyrü üstə, bükülü vəziyyətdə yerləşmişdi. Əlləri dirsəkdən sifətə doğru qatlanmışdı. Skeletin kəlləsindən qərb tərəfdə iki kiçik tutumlu bardaq qoyulmuşdu. Onlardan birinin yastı oturacağı, kürəvi gövdəsi, dar boğazı, dördləçək formada ağzı

vardır. Çubuqvari qulpu gövdə və boğazın ortasına yapışdırılmışdır (tablo I, şək. 4). İkinci bardaq da oxşar formalı olub parçalanmış halda idi (tablo I, şək. 5).

**7 saylı qəbir** 6 saylı qəbirin altında aşkar edilib təmizlənmişdir. Qəbirdə skeletin kəlləsi cənubi-qərbə, üzü cənub-şərqə, sağ böyrü üstə, bükülü vəziyyətdə idi. Skeletin ayaqlarının büküldüyü səviyyədə, şərq tərəfdə biri- digərinin içərisinə iki saxsı qab qoyulmuşdu. Qabların altında mərkəzi oyulmuş sümük əşya vardı. Qablardan biri cəftəvari qulpu olan kasa (tablo I, şək. 12), digəri isə gen boğazlı kiçik tutumlu küpədir (tablo II, şək. 7). Skeletin boyun nahiyəsində muncuq, asma, qulağında mis sırğa, bel nahiyəsində mis toqqa vardı (tablo III, şək. 5-9)

III Tablo




**8 saylı qəbir** 5 saylı qəbirdən şərqdə yerləşirdi və qismən onu kəsmişdi. Skelet qalığı 60 sm dərinlikdə üzə çıxarıldı. Qəbirdə skelet kəlləsi cənuba, üzü şərqə, sağ böyrü üstə bükülü vəziyyətdə yerləşmişdi. Ayaqları diz nahiyyəsindən qatlanmışdı. Qəbir kamerası təmizlənərkən döşəmədən, skeletin qarın nahiyyəsinə yaxın sahədən üç sümük biz, bir çaxmaq daşından oraq dişinin

fraqmenti, ayaq tərəfində mis halqa və saxsı qab aşkarlandı. Sifətinin qarşısına qoyulmuş saxsı qab isə keyfiyyətsiz olub parçalanaraq ovulmuşdu. Salamat qalmış saxsı qab cəftəvari qulplu kasa tipli qab olub gövdəsində sınıqlar vardır (tablo I, şək. 11).

**9 saylı qəbir** 8 saylı qəbirdən cənubda 1,3 m dərinlikdə üzə çıxarıldı. O qismən 5 saylı qəbrin altında yerləşirdi. Qəbirdə skelet kəlləsi şimali- şərqə, üzü şərqə, sol böyrü üstə bükülü vəziyyətdə idi. Çanaq sümüyü tamamilə, onurğa sümüyü qismən mühafizə olunmamışdı. Qıçın qatlanan səviyyəsində gil dopu qoyulmuşdu (tablo I, şək. 6).

**10 saylı qəbir** 9 saylı qəbirdən 30 sm şərqə, 1m dərinlikdə üzə çıxarılmışdır. Qəbirdə cüt dəfn qeydə alınmışdır. Skeletlər bükülü vəziyyətdə, böyrü üstə, kəlləsi cənuba yerləşmişdi. Skeletlər arasında çanaq sümüyünə yaxın qoyulmuş saxsı qab parçalanmış halda idi. Solda yerləşən qadın skeletinin kəllə tərəfində sancaq (tablo III, şək. 19), boyun nahiyyəsində boyunbağı (tablo III, şək.11-17, 20-21) və medalyon vardı. İki skelet arasına, bel nahiyyəsinə yaxın bimetal toqqa düşmüşdü. Onun əsası tuncdan, dili isə dəmirdən düzədilmişdir (tablo III, şək.18). Medalyon mis lövhədən dəyirmi formalıdır, üzərində qabarıq naxış var. Üst tərəfində ip keçirmək üçün gözlük vardır.

**11 saylı qəbir** 10 saylı qəbirin altında 1,3 m dərinlikdə üzə çıxarıldı. Qəbirdə skelet kəlləsi cənuba, böyrüüstə, əlləri sinəyə qatlanmış vəziyyətdə idi. Sağ qolunda mis bilərzik vardı. Bilərzik iki yerdən sınmışdı (tablo III, şək.23). Kəlləsindən 2 sm şərqə torpağa xəncər (tablo III, şək.27) və bıçaq sancılmışdı. Bıçağın yalnız tiyəsi qalmışdı (tablo III, şək.26). Skeletin sol tərəfində, çanaq sümüyü nahiyyəsinə yaxın ox ucluğu (tablo III, şək.24) və toqqa başlığı vardı. Toqqa başlığı dəmirdən hazırlanmış və güclü korroziyaya uğramışdır (tablo III, şək.24).

**12 saylı qəbir** 3 saylı qəbirdən qərbdə, qismən onun altında 1,6 m dərinlikdə üzə çıxarıldı. Skelet qəbirdə kəlləsi şimala, üzü şərqə, bükülü vəziyyətdə, sol böyrü üstə idi. Kəllənin yaxınlığında ağzı novçalı bardaq qoyulmuşdu. Bardağın gövdəsi qismən sınmışdı (tablo II, şək.3).

**13 saylı qəbir** 12 saylı qəbirdən 70 sm cənubda 1,6 m dərinlikdə üzə çıxarıldı. Qəbirdə skelet kəlləsi qərbə, üzü cənubi-şərqə, sağ böyrü üstə, bükülü vəziyyətdə yerləşmişdi. Skeletin ayaq tərəfində iki, çanaq sümüyündən yan tərəfdə biri digərinin içərisində olmaqla daha iki saxsı qab qoyulmuşdu. Bundan başqa gil iy başlığı və ovulmuş mis muncuq vardı.

Saxsı qablardan biri bardaq (tablo I, şək.9), digərləri isə dopudur. Dopulardan zoomof qulplu, armudvari gövdəsi, dar boğazı olan, üzəri şaquli şırımlarla bəzədilmiş nüsxə incəliyi ilə diqqəti cəlb edir (tablo I, şək.7). Oxşar formalı zoomorf qulplu qablar son antik dövrdə Albaniyanın şimal-şərq vilayətlərində geniş yayılmışdı (3, 82; 6, 53)

**14 saylı qəbir** 13 saylı qəbirdən 1,2 m qərbə, 1 m dərinlikdə üzə çıxarıldı. Qəbir dağıdılmış halda idi. Skeletin çənəsi, bir neçə qabırğa sümüyü, qol və qıç sümükəri qalmışdı. Ayaq sümükəri yaxınlığında küpə qırıqları vardı. Bu

qəbirdən şərqə, qismən də onu kəsən **15 saylı** qəbir yerləşirdi. Qəbir 1,2 m dərinlikdə üzə çıxarıldı. Ölü qəbirə başı cənuba, əlləri sifətinə qaldırılmış vəziyyətdə qoyulmuşdu. Qabırğa və onurğa sümükləri qalmamışdı. Ayaq sümüklərindən yalnız biri mühafizə olunmuşdu. Skeletin boyun nahiyyəsi yaxınlığında mis bəzək əşyaları vardı. Onlardan biri boru, dördü təkər formalı mis muncuq (tablo III, şək.28), bir mis əşya isə toqqanın dili və ya sancaq fraqmenti ola bilərdi (tablo III, şək.32).

**16 saylı qəbir** 14 saylı qəbirdən qərbdə, qismən də onun altında yerləşirdi. Skelet 1,6 m dərinlikdə üzə çıxarıldı. Qəbirə ölü başı cənubi-qərbə, üzü şərqə, sağ böyrü üstə, bükülü vəziyyətdə qoyulmuşdu. Əllər qarın nahiyyəsinə qatlanmışdı. Çanaq sümüyü nahiyyəsinə yaxın ağzı novçalı bardaq qoyulmuşdu (tablo II, şək.1).

**17 saylı qəbir** 15 saylı qəbirdən şərqdə yerləşirdi. Bu qəbirlər biri-digərini kəsmişdi. Qəbirdə skelet kəlləsi cənuba, üzü şərqə, sağ böyrü üstə, bükülü vəziyyətdə idi. Qıçlarının bükülən səviyyəsində bardaq tipli üç qabın qırıqları (tablo II, şək.4; tablo II, şək.5,9) vardı.

**18 saylı qəbir** qismən 17 saylı qəbirin altına düşür. Skelet kəlləsi cənuba, üzü qərbə, sol böyrü üstə, bükülü vəziyyətdə yerləşmişdi. Əllər çənəyə qatlanmışdı. Kəllədən arxa tərəfdə bir bütöv (tablo II, şək.2) və bir sınıq bardaq, skeletin boyun nahiyyəsində muncuqlar (tablo III, şək.29-30), balıqqulağı (tablo III, şək.34) vardı.

Qəbirlərin təsvirindən aydın olur ki, nekropoldakı qəbirlərdə təkdəfn adəti üstünlük təşkil etmişdir. 18 qəbirdən yalnız birində, 10 saylı qəbirdə cüt dəfn qeydə alınmışdır. Qəbir avadanlığı arasında saxsı məmulat çoxluq təşkil edir. 11 saylı qəbir istisna olmaqla digər bütün qəbirlərdə bu və ya digər saxsı qaba rast gəlinmişdir. Saxsı məmulat bardaq, küpə, kasa, dopu ilə təmsil olunmuşdur. Diqqəti cəlb edən cəhətlərdən biri qəbir avadanlığı arasında iri tutumlu saxsı qablara rast gəlinməməsidir. Qabların əksəriyyəti sabit temperatur rejimində bişirilmiş, saxsısının rəngi çəhrayıdır. Bəzi nüsxələrin üzərinə anqob çəkilmişdir. Bəzi bardaq və kasaların üzəri şüyrələnmişdir. Zoomorf fiqurlu qulpa malik bardaq və dopu nümunələrinə rast gəlinir. Saxsı məmulatının bəzədilməsində çərtmə, cızma və yapma naxışlardan istifadə edilmişdir. Bütövlükdə, saxsı məmulatı II-IV əsrlər üçün səciyyəvi olub həmdövr Rustov qəbiristanlığının saxsı məmulatı ilə (6, 53, tablo XV-XVII) oxşarlıq təşkil edir. Silah nümunələri azdır. 11 saylı qəbirdən tapılmış xəncər, bıçaq və ox ucluğu ilə təmsil olunmuşdur (tablo III, şək.24-27). Bəzək əşyaları metaldan, daşdan, şüşədən, pastadan hazırlanmış, müxtəlif tipli qulaq, sinə-boyun, bilək və kəmər bəzəklərindən ibarətdir (tablo III). Muncuqlar daha çoxdur. Əmək alətləri əsasən iki gil iy başlığı təmsil olunmuşdur. 8 saylı qəbirdən üç sümük biz və çaxmaq daşından hazırlanmış oraq dişinin fraqmentinin tapılması birmənalı şərh oluna bilməz. Güman ki, həmin tapıntılar ilk tunc dövrünə aiddir və 8 saylı qəbir Kür-Araz mədəniyyəti dövrünə aid qəbir dağıtması nəticəsində sümük bizlər və oraq dişinin fraqmenti buraya düşmüşdür. Yaxınlıqda ilk tunc

dövrünə aid Sərkərtəpə yaşayış yerinin yerləşməsi və qazıntılar zamanı xeyli miqdarda oxşar sümük biz və oraq dişlərinin tapılması (5) bu ehtimalı daha da gücləndirir.

## ƏDƏBİYYAT


1. Dostiyev T.M., Əliyev Ş.M., Orucov A.S. Canaxır qədim şəhər yerində 1993-cü ildə arxeoloji tədqiqatlar / S.M.Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş elmi sessiyanın materialları. Bakı, 1994, s.37-39.
2. Алиев А.А., Кошкарлы К.О. Первичные сведения о памятнике Джанахыр // Доклады АН Азербайджанской ССР, 1984, №5, с.81-85.
3. Бакушев М.А., Гаджииев М.С., Давудов Ш.О. Могильник Канабур-ауз // Вестник Института истории, археологии и этнографии, Махачкала, 2005, №1, с. 81-94.
4. Достиев Т.М. Античный некрополь городища Джанахыр // XII "Крупновские чтения» по археологии Северного Кавказа. Ессентуки-Кисловодск, 2001
5. Мусаев Д. Серкертепе – поселение эпохи ранней бронзы. Баку: Nafta-Press, 2006, 173 с.
6. Халилов Дж.А., Кошкарлы К.О., Аразова Р.Б. Археологические памятники Северо-Восточного Азербайджана. Баку: Элм, 1991, 216 с.


## АНТИЧНЫЙ НЕКРОПОЛЬ В ДЖАНАХЫРЕ


**Т.М.ДОСТИЕВ, Г.О.ГОШГАРЛЫ**


## РЕЗЮМЕ


В данной статье рассматривается результаты археологического исследования некрополя городища Джанахыр, расположенного в Хачмазском районе, вблизи реки Агчай. Здесь, на участке 28 кв.$^2$, обнаружены и исследованы 18 грунтовых погребений. В одной могиле зафиксировано парное захоронение, в других одиночное. В могильной яме находился скелет в скорченном положении на левом или правом боку. Ориентация погребальных ям и погребенных неустойчивая. Погребальный инвентарь состоит из керамических сосуд, орудия труда и украшений. Типология артефактов позволяет датировать этот некрополь поздним античным периодом.



**Ключевые слова:** Джанахыр, некрополь, погребение, античный, артефакты


## AN ANCIENT NECROPOLIS IN JANAKHIR


**T.M.DOSTIYEV, G.O.GOSHGARLI**


## SUMMARY


The article studies the excavation of the necropolis in the old town of Janakhir, situated near the Agchay river in Khachmaz. There were 18 graves discovered and researched in the 28 sq.m. site. Seventeen of the graves were found to be single burials; whereas one was a double burial. The skeletons were laid on their side in a crouched position. There was no consistent alignment to the graves. The materials consisted of ceramic vessels, a few tools and decorative items. The typology of these artifacts shows that the necropolis belonged to late ancient period.



**Key words:** Janakhir, necropolis, grave, ancient, artifact